<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>HIST 304, Azərbaycan tarixi - 2, 6 AKTS.</td></tr>
<tr><td>Departament</td><td>Tarix və Arxeologiya Departamenti</td></tr>
<tr><td>Proqram<br>(bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/2026-cı tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris<br>edən müəllim (lər)</td><td>Dr. Əlizadə Odər Elşən oğlu</td></tr>
<tr><td>E-mail:</td><td>oder.alizade@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td></td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Tələbələrlə razılaşdırılan vaxtlarda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Azərbaycan tarixi - 1</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">2026</td></tr>
<tr><td>Fənnin növü<br>(məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və<br>əlavə ədəbiyyat</td><td colspan="2">Əsas dərsliklər:<br><br>1. Azərbaycan Tarixi. Uzaq Keçmişdən 1870-ci ilə qədər, Süleyman Əliyarlı redaktəsi ilə, Çıraq nəşriyyatı, Bakı, 2016.<br>2. Ali Məktəblər Üçün Dərslik (Ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək). M. Q.<br>Abdullayevin redaktəsi ilə. Bakı, 2019.<br>3. Azərbaycanın İlk Qeyri-Hökümət Təşkilatları, Red. Nəsiman Yaqublu, Bakı, 2013.<br>4. Azərbaycan Mətbuatı Tarixi, Akif Aşırlı, (1875-1920), “Elm və Təhsil”, Bakı, 2009.<br>5. Qafqaz İslam Ordusu Azərbaycanda, Nəsiman Yaqublu, Bakı 2013.<br><br>Əlavə dərsliklər<br><br>- Cümhuriyyətə Gedən Yol. Boran Əziz. Çapar yayınları, Bakı, 2020.<br>- Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920, Parlament, Steneqrafik hesabatlar I cild, Azərbaycan nəşriyyatı, Bakı 1998.<br>- Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920, Parlament, Steneqrafik hesabatlar II cild, Azərbaycan nəşriyyatı, Bakı 1998.<br>- Azərbaycan Mətbuatı Tarixi 1875-1920, Akif Aşırlı, Elm və Təhsil nəşriyyatı, Bakı 2009.<br>- Azərbaycan Ordusunun Tarixi, 1917-1918, Mehman Süleymanov, I cild, Maarif nəşriyyatı, Bakı 2018.<br>- Azərbaycan Ordusunun Tarixi, Noyabr 1918-Aprel 1920, Mehman Süleymanov, II cild, Maarif nəşriyyatı, Bakı 2018.<br>- Azərbaycan Ordusunun Tarixi,1920-1922 , Mehman Süleymanov, III cild, Maarif nəşriyyatı, Bakı 2018.</td></tr>
</table>

| | |
|---|---|
| | - Məhəmməd Əmin Rəsulzadə əsərləri 1909-1914, II cild, Şirvannəşr nəşriyyatı, Bakı 2001.<br>- Məhəmməd Əmin Rəsulzadə əsərləri 1915-1916, III cild, Elm nəşriyyatı, Bakı 2012.<br>- Məhəmməd Əmin Rəsulzadə əsərləri 1917-aprel 1918, IV cild, Qanun nəşriyyatı, Bakı 2013.<br>- Məhəmməd Əmin Rəsulzadə əsərləri 1918-aprel 1920, V cild, Qanun nəşriyyatı, Bakı 2014.<br>- Məhəmməd Əmin Rəsulzadə əsərləri Mühacirət Dövrü Türkiyə 1922-1929, I cild, Nəsiman Yaqublu, Bakı 2016.<br>- Məhəmməd Əmin Rəsulzadə əsərləri Mühacirət Dövrü ,Yeni Qafqasiya, Azəri Türk, Odlu Yurd, Bildirişdəki yazıları, II cild, Nəsiman Yaqublu, Bakı 2021.<br>- ADR-İran Diplomatik Münasibətləri Qafqaz Fövqəladə Komissiyasının Sənədləri İşığında 1919-1920-ci illər, Şərq-Qərb nəşriyyatı, Bakı 2017.<br>- Azərbaycan Cümhuriyyətində Xalq Təhsili 1918-1920-ci illər, Əzizə Ənvər qızı Nəzərli, Xəzər Universitəsi nəşriyyat, Bakı 2018. |
| **Kursun təsviri** | Bu kurs Azərbaycan tarixinin əsas mərhələlərinin elmi-nəzəri əsaslar üzərində öyrənilməsinə həsr edilmişdir. Fənn çərçivəsində Azərbaycan tarixinin XVIII əsrin ikinci yarısından XX əsrin əvvəllərinədək olan ictimai-siyasi, iqtisadi və mədəni inkişaf mərhələləri sistemli və kompleks şəkildə təhlil olunur. Xüsusi diqqət XVIII-XX əsrlərdə baş vermiş mühüm tarixi proseslərə, milli dövlətçilik ideyasının formalaşmasına, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə və müstəqil dövlətçilik mərhələsinin əsas xüsusiyyətlərinə yönəldilir.<br>Kursun məqsədi tələbələrdə tarixi hadisələri ilkin mənbələr və elmi ədəbiyyat əsasında qiymətləndirmək, tarixi proseslərin səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək və milli tarixə obyektiv, analitik və tənqidi elmi yanaşma formalaşdırmaqdır. Tədris prosesi mühazirələr, mətn təhlilləri, məşğələlər, qrup müzakirələri və praktik tapşırıqlar vasitəsilə həyata keçirilir və tələbələrin analitik düşünmə, tənqidi təhlil və tarixi bilikləri tətbiqetmə bacarıqlarının inkişafını təmin edir. |
| **Kursun məqsədləri** | Bu kursun məqsədi Azərbaycan tarixinin XVIII əsrin ikinci yarısından XX əsrin əvvəllərinədək olan dövrünü tarixi metodologiya və müasir elmi yanaşmalar əsasında öyrətmək, tələbələrdə həmin mərhələyə dair müstəqil elmi təhlil aparmaq bacarığı formalaşdırmaqdır. Kurs tələbələrin tarixi prosesləri xronoloji ardıcıllıqla dərk etməsini, əsas hadisə və anlayışları nəzəri kontekst daxilində şərh etməsini təmin etməyə yönəlmişdir.<br>Kursun məqsədləri aşağıdakılardır:<br>• tələbələrə Azərbaycan tarixinin müvafiq dövrü üzrə strukturlaşdırılmış və dərinləşdirilmiş biliklər qazandırmaq;<br>• tarixi mənbələrdən istifadə etməklə elmi araşdırma aparma və nəticə çıxarma bacarığını inkişaf etdirmək;<br>• ictimai-siyasi və iqtisadi dəyişikliklərin tarixi məzmununu elmi kateqoriyalar vasitəsilə izah etmək vərdişi formalaşdırmaq; |

<table>
<tr><td></td><td colspan="3">

- milli dövlətçilik ənənələrinin təşəkkülünü tarixi kontekst çərçivəsində şərh etmək qabiliyyətini gücləndirmək;
- tələbələrdə müqayisəli təhlil, ümumiləşdirmə və elmi arqumentasiya bacarıqlarını inkişaf etdirmək;
- tarixi biliklərin müasir ictimai şüurun formalaşmasındakı rolunu dərk etməyə istiqamətləndirmək.

</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">

Bu fənni uğurla başa vurmuş tələbələr aşağıdakı bilik, bacarıq və kompetensiyalara yiyələnəcəklər:

- Azərbaycan tarixinin XVIII əsrin ikinci yarısından XX əsrin əvvəllərinədək olan dövrünün əsas mərhələlərini, aparıcı tarixi hadisələrini və inkişaf meyillərini elmi əsaslarla izah edə biləcəklər;
- tarixi hadisə və prosesləri xronoloji ardıcıllıq və məkan konteksti çərçivəsində sistemləşdirə biləcəklər;
- ilkin mənbələr və elmi ədəbiyyat əsasında tarixi faktları təhlil etmək və müqayisəli qiymətləndirmə aparmaq bacarığına malik olacaqlar;
- ictimai-siyasi, iqtisadi və mədəni proseslərin qarşılıqlı əlaqəsini müəyyənləşdirə və elmi arqumentlərlə əsaslandıra biləcəklər;
- milli dövlətçilik ideyasının formalaşma mərhələlərini tarixi baxımdan şərh edə biləcəklər;
- tarixi problemlər üzrə müstəqil fikir yürütmək və elmi müzakirələrdə əsaslandırılmış mövqe ortaya qoymaq bacarığı qazanacaqlar;
- analitik düşünmə, tənqidi təhlil və akademik yazı bacarıqlarını inkişaf etdirəcəklər;
- əldə etdikləri tarixi bilikləri tədris, tədqiqat və ictimai fəaliyyət sahələrində tətbiq etmək qabiliyyəti formalaşdıracaqlar.

</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Tapşırıq (mətn təhlili)</td><td>Semestr boyu</td><td>10</td></tr>
<tr><td>Yoxlama işi (Quiz)</td><td>Aralıq imtahanından öncə<br>Final imtahanından öncə</td><td>5+5</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr boyu</td><td>5</td></tr>
<tr><td>Esse</td><td>Final imtahanından öncə</td><td>5</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun</td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
</table>

| | |
|---|---|
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br><br>**Dərsə gecikmələr və ya digər dərs pozuntuları**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qayıb yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır.<br><br>**Yoxlama işi**<br>Yoxlama işi tələbələrin mövzu üzrə bilik və analitik hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə yazılı formada keçirilir. Sənədlə təsdiq edilən üzrlü səbəblərə (sağlamlıqla bağlı arayış, rəsmi icazə sənədi və s.) görə yoxlama işində iştirak edə bilməyən tələbələrə növbəti həftə ərzində yoxlama işini yazmaq imkanı yaradılır. Bu halda tələbə üzrlü səbəbi təsdiq edən müvafiq sənədləri müəllimə təqdim etməlidir. Yoxlama işi zamanı tələbələrin müvafiq mövzular üzrə nəzəri bilikləri, tarixi prosesləri anlama səviyyəsi və yazılı şəkildə elmi fikir ifadə etmə bacarığı qiymətləndirilir.<br><br>**Esse**<br>Seçilmiş mövzu üzrə tələbələr yazılı esse hazırlayacaqlar. Esse tələbənin mövzuya dair apardığı müzakirəni, şəxsi düşüncələrini və analitik təhlilini əks etdirməlidir. Esse mətnində yalnız faktların sadalanması deyil, tələbənin mövzuya münasibəti, müstəqil düşünmə qabiliyyəti və tənqidi yanaşması əsas meyar kimi qiymətləndiriləcəkdir. Müzakirə və təhlil elementi essenin əsas məzmununu təşkil etməlidir.<br><br>**Tapşırıq**<br>Bu tapşırıq çərçivəsində tələbələr Azərbaycan tarixinin müvafiq dövrü üzrə seçilmiş elmi-nəzəri məqalələri, imzalanmış beynəlxalq müqavilə mətnlərini, rəsmi qərar və sənədləri şifahi formada təhlil edəcəklər. Təhlil zamanı tələbələr təqdim olunan mətnlərin məzmununu elmi metodologiya əsasında şərh etməli, tarixi hadisə və proseslərin səbəb-nəticə əlaqələrini müəyyənləşdirməli, sənədlərin ictimai-siyasi və hüquqi əhəmiyyətini izah etməlidirlər. Şifahi müzakirə prosesində əsas diqqət tarixi mənbələrin obyektiv qiymətləndirilməsinə, müxtəlif elmi yanaşmaların müqayisəli şəkildə təqdiminə və mövzu üzrə əsaslandırılmış elmi mövqenin formalaşdırılmasına yönəldilir. Tapşırıq məşğələləri zamanı şifahi təqdimat və müzakirə formatında həyata keçirilir və tələbələrin elmi terminologiyadan düzgün istifadə etməsi, mənbələrə əsaslanan arqumentasiya aparması tələb olunur.<br><br>**İmtahanlar**<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br><br>**İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları işində tələbə tərəfindən və bir-birindən köçürmə halları qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır. |

| | |
|---|---|
| | **Fənni bitirmək qaydası**<br>Universitənin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br><br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini pozmaq və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | Azərbaycanda müstəqil Türk xanlıqlarının yaranması, idarəçilik sistemi, xarici siyasəti. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. Bölmə 15. |
| 2. | | Azərbaycan beynəlxalq münasibətlərdə (XVIII əsrin sonu - XIX əsrin əvvəli). Şimali və Cənubi Azərbaycanın Çar Rusiyası və Qacar dövləti arasında bölüşdürülməsi. Gülüstan və Türkmənçay müqavilələri. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. Bölmə 16, 18. |
| 3. | | XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda ictimai - siyasi həyat. Müstəmləkə zülmünə qarşı üsyanlar. Bölünmədən sonra Cənubi Azərbaycanda ictimai-siyasi vəziyyət. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. Bölmə 17. |
| 4. | | Şimali Azərbaycan XIX-cu yüzilliyin ikinci yarısında. Kapitalist münasibətlərin yaranması və inkişafı. Bakının dünya neft mərkəzi kimi yüksəlişi. XIX əsr Azərbaycan mədəniyyəti. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. Fəsil 19. |
| 5. | | Şimali Azərbaycan XX əsrin əvəllərində. Milli Azadlıq Hərəkatının başlanması. 1905-ci il erməni-türk (müsəlman) davası. Azərbaycanda mətbuat və milli fikir tarixi. Rusiya dövlət dumasında Azərbaycanlı deputatlar və onların fəaliyyətləri. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2. IX Fəsil. § 30. 4. ss. 12-133. |
| 6. | | Azərbaycanda siyasi təşkilatların yaranması və fəaliyyəti. (“Difai”, “Müdafiə”, “Türk Ədəmi Mərkəziyyət”, “Müsavat” və s). Yaranmış xeyriyyə təşkilatları. (“Müsəlman Xeyriyyə Cəmiyyəti”, “Nicat”, “Nəşri-Maarif”, “Səadət” və s). | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 3. ss. 15-64. |
| 7. | | Güney Azərbaycan XX əsrin əvvəllərində. Güney Azərbaycanda demokratik hərəkat. Məşrutə inqilabı. Səttar xan. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2. IX Fəsil. § 31. |
| | | **Aralıq imtahanı** | |
| 8. | | Azərbaycan Birinci Dünya müharibəsi illərində. Azərbaycan Rus inqilabı illərində (fevral - oktyabr | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2. Fəsil IX. § 32. |

| | | | |
|---|---|---|---|
| | | 1917-ci il). Bakıda Qafqaz Müsəlmanları qurultayının keçirilməsi. | |
| 9. | | Azərbaycanda milli dövlətçiliyə gedən yol. Ərazi muxtariyyəti ideyasının irəli sürülməsi. 1917-ci ilin mayında Rusiya Müsəlmanları Qurultayının keçirilməsi. Ə. M. Topçubaçovun və M. Ə. Rəsulzadənin fəallığı. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2 Fəsil IX. § 34. |
| 10. | | Zaqafqaziya Seyminin yaranması. Azərbaycanlı siyasi xadimlərin Tiflisdə Seymdə fəallığı. 1918-ci ilin mart-aprel hadisələri; ermənilərin türk-müsəlman əhaliyə qarşı soyqırım törətməsi. Bakı, Quba, Şamaxıda soyqırım fəaliyyətləri. S. Şaumyanın başçılıq etdiyi Bakı Şəhər Xalq Komissarları Sovetinin bu qırğınlarda məsuliyyəti. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2 Fəsil IX. § 34. |
| 11. | | Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi. İstiqlaliyyət Bəyannaməsi.<br>Azərbaycanın istiqlaliyyət uğrunda mübarizəsi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2 Fəsil X. § 36-37. |
| 12. | | Azərbaycanın işğaldan qurtuluşu. Qafqaz İslam ordusunun döyüş yolu və missiyası. Osmanlı Türk paşalarının fədakarlığı. Azərbaycan hökumətinin Bakıda fəaliyyətə başlaması. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 5. Fəsil I, II, III. |
| 13. | | AXC-in daxili siyasəti. Ərazi bütövlüyü uğrunda mübarizə. Təhsilin milliləşdirilməsi. İlk Universitetin yaradılması. Milli ordunun formalaşması. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2. Fəsil X. § 36. |
| 14. | | Azərbaycanın beynəlxalq vəziyyəti.<br>Paris sülh konferansına Ə.M.Topçubaşovun başçılığı ilə nümayəndə heyətinin göndərilməsi.<br>Azərbaycanın müstəqil dövlət kimi tanınması. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2. Fəsil X. § 36. |
| 15. | | 1920-ci ilin Bolşevik Rus işğalı. Azərbaycan Parlamenrinin son toplantısı. Cümhuriyyətin işğalı. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2. Fəsil XI. § 38. |
| | | **Final imtahanı** | |